# Qarabağ və Şərqi Zəngəzurun bərpası yeni mərhələyə qədəm qoyub

***Prezident, Ali Baş Komandan İlham Əliyevin Silahlı Qüvvələr Günündə Kəlbəcərə səfər etməsi, hərbi hissənin, üstəlik, komando qüvvələrinin hərbi hissəsinin açılışında iştirakı siyasi və hərbi nöqteyi-nəzərdən xüsusi əhəmiyyət kəsb edir. Müharibə başa çatsa da, ordu quruculuğu prosesi daha geniş şəkildə davam etdirilir və Ali Baş Komandanın da söylədiyi kimi, biz indi bütün sərhəd boyunca yerləşmişik. Bütün sərhədlərdə hərbi hissələrin yaradılması, qısa müddətdə onların tam döyüş qabiliyyətli səviyyəyə çatdırılması Azərbaycanın gücünün nümayişidir. Müharibədən ötən ilyarım ərzində ordumuz daha da güclənib, ən müasir silahlarla təchiz edilib.***



Məlumdur ki, birinci komando hərbi hissəsi ötən ilin sonunda strateji əhəmiyyət daşıyan Hadrutda istifadəyə verilib. Kəlbəcər də strateji baxımdan olduqca əhəmiyyətli bölgədir. Bundan sonra da yeni komando hərbi hissələrinin açılması nəzərdə tutulur və təbii ki, bu silahlı birləşmələrdə minlərlə azərbaycanlı xidmət edəcək. Dövlət başçımızın da söylədiyi kimi, bu, bizim gücümüzü daha da artıracaq.

Kəlbəcərdən Ermənistana xəbərdarlıq da edildi. Əsas mesaj isə bu idi ki, İkinci Qarabağ müharibəsindəki acınacaqlı məğlubiyyət Ermənistan üçün dərs olmalıdır. Revanşistlər anlamalıdır ki, təxribatlar nəticə verməyəcək. “Əgər yenə də Ermənistanda revanşist qüvvələr baş qaldırsa, bilməlidirlər ki, onları nələr gözləyir”– deyən dövlət başçımız bir daha bəyan etdi ki, biz müharibə yox, maraqlarımızın təmin olunmasını istəyirik. Bu maraqların təmin olunması isə təbii ki, ilk növbədə, Azərbaycanın yaratdığı yeni reallıqların qəbul olunmasıdır. Bir halda ki, beynəlxalq ictimaiyyət postmüharibə reallıqlarını qəbul edib və öz fəaliyyətini bu reallıqlar əsasında qurur, təbii ki, Ermənistan da bu reallığı qəbul etməyə məcburdur.

Səfər zamanı dövlət başçımız bir çox infrastruktur obyektlərinin açılışında da iştirak etdi. Eyni zamanda, Kəlbəcərin təbii sərvətləri, bölgənin rəmzi olan “İstisu” şəfa ocağının bərpası isə xüsusi qeyd olunmalıdır. Dövlət başçımızın mineral su zavodunun təməlini qoyması ilə “İstisu” yenidən Azərbaycanda istehsal olunacaq və ixrac ediləcək. Yəni bu, məşhur “İstisu” sanatoriyasının şöhrətinin qaytarılması deməkdir. İnsanlarımız yenidən bu təbiət möcüzəsindən şəfa tapa biləcəklər. Biz tarixi torpaqlarımıza qayıtmaqla bərabər təbii sərvətlərimizi də özümüzə qaytarmışıq. Ermənilər isə öz xislətlərini burada da gizlədə bilməyib, sanatoriyanı dağıdıblar.

Dövlət başçımızın Kəlbəcərə səfəri zamanı bu dağıntıların timsalında erməni faşizminin iç üzünü növbəti dəfə gördük. Ən vacib məsələlərdən biri, təbii ki, bu vandallıq aktlarının dünyaya çatdırılmasıdır ki, işğaldan azad olunmuş ərazilərdə təməli qoyulan İşğal və Zəfər muzeyləri də bu məqsədə xidmət edir. Kəlbəcər və Laçında təməli qoyulan muzeylər də təqdim olunan informasiyanın daha geniş auditoriyaya çatdırılmasını təmin edəcək.

İşğaldan azad olunmuş bütün ərazilərdə dağıntılar qısa vaxtda bərpa olunur. Kəlbəcər və Laçın relyef baxımından mürəkkəb məkan olsa da, burada da bərpa-quruculuq işləri sürətlə aparılır. Qısa müddətdə istifadəyə verilən 4 su elekrtik stansiyası sayəsində Azərbaycanın enerji gücü artır və bərpaolunan enerji növlərinin də həcminin artırılmasını təmin edir. Gələn il daha 5 su elektrik stansiyası istifadəyə veriləcək. Eyni zamanda, Kəlbəcər və Laçında inşa edilən 10-dan çox tunel də mülki əhali, həmçinin hərbçilər üçün olduqca mühüm əhəmiyyət kəsb edir.

Özünəməxsus təbiətə malik olan Kəlbəcərin baş planı da ən yüksək səviyyədə hazırlanır. Bütövlükdə, rayonun inkişaf konsepsiyası onun ən inkişaf etmiş bölgəyə çevrilməsini təmin edəcək.

Laçında inşa olunan yeni beynəlxalq hava limanı isə 2024-cü ildə istifadəyə hazır olacaq ki, bu da bölgəyə rahat gediş-gəlişi təmin edəcək. Bir sözlə, azad olunmuş ərazilərdə aparılan bərpa-quruculuq işləri infrastruktur, sosial obyektlər, məscidlərin bərpası, muzeylər, hava limanları, dəmir yolları, tunellərin inşasını əhatə edir. Prezident İlham Əliyevin bu ərazilərə səfəri Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması istiqamətində tədbirlərin daha da genişləndirildiyini, bu prosesin yeni mərhələyə qədəm qoyduğunu bir daha təsdiq edir.

***Könül NURULLAYEVA,***
***Milli Məclisin deputatı***

Xalq qəzeti .- 2022.- 29 iyun.- S.8.